Səh. 2 Süni intellek dövründə hekayə müsabiqəsi – Azər Musaoğlu

Səh. 3 Tətil – Hacı Bəkiroğlu

Səh. 5 Yoxsul teatr – Anar Rafiqoğlu

Səh. 6 Problemin kökü haradadır? – Aytən Fətullayeva

Səh. 2 Aya, qoymayın üstümə İrasim gəlir – Binəli İslamoğlu

Səh. 4 MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANDA İŞTİRAK EDƏNLƏRƏ PEDAQOQ TÖVSİYƏSİ

Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN 2026-CI İL № 12 (252)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA ƏCNƏBİLƏRLƏ BAĞLI QANUN SƏRTLƏŞDİRİLİR



Gürcüstan Parlamentinin Hüquqi Məsələlər Komitəsi “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu haqqında” Qanuna edilən dəyişiklikləri və ona əlavə edilmiş layihələri ilk dinləmədə sürətləndirilmiş şəkildə nəzərdən keçirib və dəstəkləyib.

Layihə ilə bağlı Gürcüstan daxili işlər nazirinin müavini Aleksandre Daraxvelidze məlumat verib. Onun sözlərinə görə, qanunvericilik qaydalarına əsasən, Gürcüstanda universitetə qəbul olmaq istəyən tələbə Gürcüstan hökuməti tərəfindən müəyyən edilmiş dil biliyini təsdiq edən sertifikat təqdim etməlidir. Bundan əlavə, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə müəyyən hallarda xarici dil imtahanı təşkil etmək səlahiyyəti verilir. Düzəlişlərə görə, əgər xarici tələbə Gürcüstanda təhsil alırsa, bir tədris ili ərzində qanunla tələb olunan kreditlərin sayının ən azı üçdəbirini toplamalıdır. Əgər xarici tələbə statusunu 90 gündən çox müddətə dayandırarsa, bu, onun rezidenturasının ləğvi üçün əsas olacaq. Həmçinin əgər xarici tələbə ölkəni 183 gündən çox müddətə tərk edərsə və bu, üzrlü səbəb deyilsə (mübadilə proqramı və ya tibbi ehtiyac), onda da bu, onun rezidenturasının itirilməsi üçün əsas olacaq.

Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin bazasında vahid informasiya sistemi yaradılacaq və burada hər bir xarici tələbənin qəbulu, təhsili və statusunun dayandırılması məsələləri öz əksini tapacaq.

Dəyişikliklər Gürcüstan vətəndaşı ilə nikahdan sonra daimi yaşayış icazəsinin verilməsi məsələsinə də təsir edəcək. Xüsusilə Cinayət Məcəlləsinə saxta nikahı və ya belə nikahda olmağı cəzalandıran yeni bir maddə daxil ediləcək. Nikahın həqiqi olduğu təsdiqlənərsə, bu halda müəyyən bir mexanizm mövcud olacaq. Xüsusilə daimi yaşayış icazəsi ilk dəfə verilməyəcək, lakin xüsusi icazə növü – Gürcüstan vətəndaşının həyat yoldaşı üçün yaşayış icazəsi tətbiq olunacaq ki, bu da ilk dəfə bir il, daha sonra isə iki il müddətinə veriləcək. Ümumilikdə bu proses beş il müddətində izləniləcək və əgər nikahın həqiqi olduğu təsdiqlənərsə, daimi yaşayış icazəsi veriləcək.

Qanunvericilik dəyişiklikləri paketinə Cinayət Məcəlləsinə edilən düzəliş daxildir. Bu düzəlişə əsasən, Xüsusi Penitensiar Xidmətin yerli şurası xüsusi riskli həbsxana müəssisəsinə yerləşdirilən xarici məhkum istisna olmaqla, müddətli azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş xarici məhkum üçün cəzanın çəkilməmiş hissəsini Gürcüstandan çıxma və Gürcüstana giriş qadağası ilə əvəz etmək imkanına malik olacaq. Bu, xarici məhkum az ağır cinayətə görə cəzasının ən azı üçdəbirini, ağır cinayətə görə ən azı yarısını və xüsusilə ağır cinayətə görə cəzasının ən azı üçdə ikisini çəkdikdən sonra baş verəcək.

## BAŞ NAZİR: PENSİONERLƏRİN SAYI 24200 NƏFƏR ARTIB, BU İSƏ PENSİYALARI DAHA DA ARTIRMAQ İMKANIMIZI AZALDIR



Baş nazir İrakli Kobaxidzenin bəyanatına görə, ötən il pensionerlərin sayı 24200 nəfər artıb, bu isə pensiyanı daha da çox artırmaq imkanını azaldır. Bu barədə Gürcüstanın Baş naziri parlamentdə illik hesabat məruzəsi ilə çıxış edərkən bildirib.

Onun sözlərinə görə, pensiyalar hissəsində büdcəyə yarım milyarddan çox vəsait əlavə edilib.

***“Bu istiqamətdə büdcə ilk dəfə olaraq 5 milyard larini ötdü, bu da bizə 70 yaşınadək pensionerlər üçün pensiyanı 20 lari, 70 yaşdan yuxarı pensionerlər üçün isə 45 lari artırmaq imkanı verdi. Müvafiq olaraq, builki büdcəyə əsasən pensiya 370 və 495 lari, dağlıq regionlarda isə müvafiq olaraq 444 və 594 lari təşkil edir. Pensionerlərin sayı mütəmadi olaraq artır, bu da orta yaş həddinin artmasının davamıdır. Ötən il ərzində Gürcüstanda pensionerlərin sayı 24200 nəfər artıb. Bu, pensiyanı daha da çox artırmaq imkanımızı azaldır, lakin təbii ki, əsas odur ki, əhalinin orta yaş həddi yüksəlir. Bu, bizim sosial və səhiyyə proqramlarımızın uğurlu icrasının nəticəsidir.***

***Ümumilikdə, 2012-ci ildən sonra Gürcüstanda pensionerlərin sayı 206000 nəfər, yəni 30 % artıb və bunun səbəbini izah etmək çox sadədir. Sabiq hakimiyyət dövründə insanlara qarşı səhiyyə və sosial baxımdan sıfır qayğı var idi, indi isə qayğı göstəricisi radikal şəkildə artıb. Məhz bunun nəticəsidir ki, orta yaş həddinin yüksəlməsi ilə pensionerlərin sayı artıb və pensiya alanların sayı 30 % çoxalaraq 683000-dən 889000 nəfərə çatıb”,*** – deyə Baş nazir bəyan edib.



## SÜNİ İNTELLEK DÖVRÜNDƏ HEKAYƏ MÜSABİQƏSİ

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Ötən ay 9-12-ci sinif şagirdləri üçün hekayə müsabiqəsi elan etmişdik. Gürcü və Azərbaycan dilində 140-dan çox hekayə göndərildi. Başdan sevindirici olsa da, sonra təəssüfləndirici oldu. Hekayələrin 90 faizi süni intellek (Sİ), "ChatGPT" vasitəsilə yazılıb. Sanki bütün hekayələri bir nəfər oturub ora-burasını dəyişərək bir neçə variantda yazıb. Bu "hekayələrin" əksəriyyətində eyni cümlələr var, bəziləri Sİ-nin təklif etdiyi "İstəyirsiniz hekayəni daha bədii edək" kimi cümlələri silməyi də unudublar. Bu "hekayələrdə" hətta qəhrəmanların adları da eynidir, məsələn, əksəriyyətində qəhrəmanın adı Muraddır. Süni intellektin Murad adına bu "sevgisi" haradandır görəsən?.. Bundan əlavə, cizgi filmini köçürüb göndərənlər və mövzu ilə bağlı məqalə göndərənlər də var (Əgər bunlara məqalə demək olarsa, vikipediya məlumatlarıdır). Hörmətli dil, ədəbiyyat müəllimləri, sizcə, 9-12-ci sinif şagirdləri niyə hekayə ilə məqaləni ayıra bilmirlər?! Bir sözlə, müsabiqənin elanında "ChatGPT" ilə yazılan hekayələr qəbul olunmayacaq" xəbərdarlığına heç əhəmiyyət verən də olmayıb.

Düzü, süni intellektdən şagirdlərin belə istifadə etdiklərini mən bu qədər təsəvvür etmirdim. İndi siz təsəvvür edin dərslər nə gündədir. "ChatGPT"-yə hekayə yazdırıb müsabiqəyə göndərən şagird mütləq ev tapşırıqlarını da süni intellekt vasitəsi ilə hazırlayır. Məsələn, kitabdakı hansısa misalın, məsələnin şəklini çəkib "ChatGPT"-yə göndərir, o da hazır həlli, cavabları qoyur şagirdin qarşısına. Şagir də beynini işlətməyərək hazır cavabları köçürüb sinifdən sinfə keçir, məktəbi bitirir. Və bunlar sabah müəllim, həkim, hakim, direktor, deputat və sair olacaqlar (Burada, əlbəttə, süni intelekt kömək etməyəcək, olsa-olsa tanışlıqla, qohumluqla, pulla olacaqlar).

Təsəvvür edin xəstə ödündən və ya mədəaltı vəzindən əməliyyat olunur və xirurq telefonu əlcəkli əlində tutub "ChatGPT"-dən soruşur: "Öd bədənin harasında yerləşir, bədənin harasını kəsim ki, ödü görə bilim..." Və ya müəllim dərsdə hansısa riyazi misalın həllini, cavabını telefonda "ChatGPT"-yə yazıb öyrənir və lövhəyə köçürür... Adam dəhşətə gəlir...

Mən heç vaxt texnologiyanın, yeniliyin əleyhinə olmamışam, əksinə, amma əgər bu texnologiya, bu yenilik insanları düşünməyə qoymursa, beyinlərini və əzələlərini işlətməyə qoymursa, küt, qanmaz, fəhimsiz, ağılsız insanlar kütləsi yetişdirirsə cəhənnəm olsun belə texnologiyanı da, belə yeniliyi də! Məndən olsa süni intellektdən istifadəni tam pullu edərdim, hamı üçün əlçatan etməzdim. Qoy istedadsızlar, savadsızlar, bacarıqsızlar özlərini yazıçı kimi qələmə vermək üçün zəhmət çəkib xeyli pul ödəsinlər. Artıq hekayələrdə, məqalələrdə üslub səhvi, qrammatik səhvlər görəndə adam sevinir. Nə demək istədiyimi yazı-pozu adamları, redaktə ilə məşğul olanlar yaxşı başa düşəcəklər. Hər şeyin sünisini çıxarıblar artıq. İndi yazanın sünisini, təbiisini tanımaq üçün gərək onunla bir pud duz yeyəsən, yol gedəsən.

Bilirsinizmi ən pisi də nədir? – "Hekayələrində" texnologiya asılılığından yazan, onu pisləyən şagirdlərin özləri çoxdan texnologiyadan asılı vəziyyətə düşüblər. Kitab oxumaq, düşünmək, araşdırmaq, başlarını işlətmək əvəzinə hazırın naziri olurlar, tənbəlləşirlər və bir gün texnologiyasız, süni intellektsiz qalan bu gənclik adi bir çıxılmaz vəziyyətdə, yüngülvari çətinlikdə özünü itirəcək, bilməyəcək nə etsin, necə etsin. Axı həyatda süni intellektin, "ChatGPT"-nin bilmədiyi şeylər də var.

Nə isə, demək ki, süni intellek dövründə şeir, hekayə, məqalə müsabiqəsi elan etmək sadəlövhlükmüş...

## AYA, QOYMAYIN ÜSTÜMƏ İRASİM GƏLİR



Bu yaxınlarda rəssam Rasim Həsənovun bir karikaturasını paylaşdım. Karikaturada elə dəhşətli bir şey yox idi, sadəcə, gözəl bir tənqid vardı. Mən də bunu sosial şəbəkələrin birində paylaşdım və soruşdum ki: Görəsən, günümüzdə də məsciddə yığılan sədəqələri ciblərinə doldurub aparan mollalar varmı? Sonra nə olsa yaxşıdır? – Aya, qoymayın üstümə İrasim gəlir.

Elə bil arı yuvasına çöp uzatdım. Zəng edənə bax, mesaj yazana bax, hədə-qorxu gələnə bax. Elə bil dövlət sirrini ifşa etmişəm. Maraqlıdır, mən sual vermişəm, amma cavab vermək əvəzinə hamı özünü müdafiəyə qalxıb. Deyəsən, yarası olan, türklər demiş: "gocunur".

Ay Tofiq əminin uşaqları, siz yox, lap ağa bəyləriniz gəlsə də fikrim dəyişən deyil. Siz adamlara söykənirsiniz, mən isə tək olan Allaha. Siz adlardan güc alırsınız, mən həqiqətdən. Əgər bir karikatura və bir sual bu qədər adamı narahat edirsə, deməli, problem karikaturada deyil, sizdədir.

Necə gözəl deyib Mirzə Ələkbər Sabir:

*Dəyişib dövrü-zaman hamı gümannan danışır,*
*Molla rüşvətxanadan, kafir imannan danışır.*
*Qalmayıb sevgi, məhəbbət işığından bir ümüd,*
*Məcnun artistlik edir, Leyli yalandan danışır.*

Bu şeir bir çox mollaların xoşuna gəlmir, hələ bundan başqa şeirləri də var ki, mollaları təmiz dəli edir.

Nə deyir burda şair. "Molla rüşvətxanadan danışır" – dini təmsil edən, amma rüşvət və dünyəvi mənfəət arxasıyca gedən riyakar din adamlarının haqqında danışmasından gedir söhbət. Bütün mollalara aid deyil.

"Kafir imandan danışır" – özünü dinsiz sayan və ya dinə uzaq olan birinin iman haqqında danışmasından gedir söhbət.

Bu gün bir çox adam Mirzə Ələkbər Sabiri sevmir. Onu sevməyənlərin çoxu da bəllidir. Amma, inanın ki, Sabir islamı bir çoxunuzdan daha gözəl qavrayıb və yaşayıb (Ən azından islam adından istifadə edib öz xeyirinə danışanları yaxşı tənqid edib).

Axı şair gördüyünü yazıb, cəmiyyətin yaralarına güzgü tutub. Burada nə var ki? Əgər bir satira yüz ildən sonra da kimlərisə narahat edirsə, deməli problem şeirdə yox, həmin insanların özündədir. Sabir insanları deyil, riyakarlığı, cəhaləti və saxtakarlığı tənqid edirdi. Bu gün də onun misralarında özünü görənlər narahat olursa, buna görə şairi günahlandırmaq olmaz.

Yox, bu nə düşüncədir axı. Məmuru tənqid etmə, müəllimi tənqid etmə, mollanı tənqid etmə, rejissoru tənqid etmə, aktyoru tənqid etmə... Bəs nə edək? Baxaq, susaq? Elə olmur axı. Mən hansısa molla və ya axundu tənqid edirəmsə, bu, nə islama qarşı çıxmaqdır, nə də islam düşmənçiliyidir. Mollanı, axundu tənqid etmək nə Allahı, nə də dini tənqid etməkdir. Molla mənim üçün müqəddəs ola bilməz. Axı molla bilməlidir, xəlifəlik dövründə ilk xəlifələrdən biri belə deyirdi: "Əgər yolumdan azsam, məni düzəldin". Səhabələr isə cavab verirdilər: "Səni qılınclarımızla düzəldərik".

Bu gün isə tənqidi nəsə deyəndə dərhal narahat olursunuz. Niyə? Soğan yeməmisən, için niyə göynəyir? Hələ ki mən qılınc çıxarmamışam. Hələ ki sözlə deyirik. Yoxsa elə bilirsiniz Zülfüqar axtarırıq? Dəmirdən qorxsaydım qatara minməzdim.

Gərçi bu aralar qatara da minmək olmur. Biletin qiyməti təyyarədən bahadır. Nə isə, bu da tamam başqa dərddir.

**Binəli İslamoğlu**
*"BEEZ" Uşaq Teatrının rəhbəri*

# SƏHV EDƏNDƏ DÖN GERİ BAX



Hardasa oxumuşdum ki, insasn həyatında iki dəfə çox güclü ağrı çəkir: bir dünyaya gələndə, bir dünyadan gedəndə. Bəli, ağlayaraq gəlir, kədərlənərək gedir. Ortada qalan zamanı isə ya mübarizələr, ya anlaşılmazlıqlar, ya da nakam ömürlə keçir. Sonunda, sən demə, yaşanan ömrü heç kim Xoş Bəxtlə yaşamırmış. Görünməyən tərəflərini bilmədən birinə bəxtəvər deyirik, birinə xoşbəxt, birinə yarımış... Bax, budur həyat gerçəkliyi.

Məşhur bir müxbir sualı da var: "Yenidən dünyaya gəlsəniz bu ömrü necə yaşayardınız?" Bəlkə də taleyin ən acımasız sualıdır. Olmayacağını bilə-bilə arzulayırsan, xəyalla danışırsan. Axı heç birimizə o fürsət verilmir.

Hər şeydən əlimiz üzüləndə də bütün günahları qoyuruq taleyin, alın yazısının boynuna. Guya həyatımız ssenari imiş, biz də oyunçu... Heç bir günah etmədən bir rolumuz varmış, gəldik, oynadıq, bitirdik. Nə günahımız varmış, nə səhvimiz.

ƏSLA!

Həyata bir dəfə gələn insan təcrübəsizdir, səhv edə bilər, səhv düşünə də bilər. Yetər ki, səhvini təhlil edə bilsin, nəticə çıxarsın. Hörmət etdiyim bir nəfər onu da deyirdi ki, bir səhvin olanda dön geri bax, günahı özündə axtar, düşün harada səhv etdim. Çox xoşuma gəlmişdi bu fikir, hər kəs özünü təhlil edə bilsəydi səhvlər rəvayətə qovuşardı.

Adam var mühiti ziyalılar, ya sadə zəhmətkeşlər, ya kənd adamı, ya şəhər adamı olur. Ona görə də fikri birtərəfli olur. Adam da var, məni kimi, cəmiyyətin müxtəliflik əhatəsindədir.

Nə yaxşı ki, müəlliməm! Uşaqdan böyüyə, qocadan cavana, kəndlidən şəhərliyə, hətta kənddən şəhərə elə bir əhatədəyəm ki, heç psixoloqlar məni qədər müxtəlif dünya görüşlü, səviyyəli, fərqli həyat bucağına malik insanlar komandası yığa bilməzlər. Kəndlə şəhər arasında keçən həyatımın bu gününə qədər təcrübəsiylə elə bilirəm az bilmirəm. Ən azından psixoloq qədər anlayıram, nəticə çıxarıram, yol göstərirəm.

Həmişə yazmışam, demişəm, atalar sözləri dediklərimiz bir həyat təcrübəsinin yekun – xalqın elmi işidir. Heç bir səhv olmadan əsrlərin sınağında təkrarlanaraq məişətimizə daxil olub. Baxmayaraq dünyada məşhur alimlər var, amma biləsuvarlı xalanın dediyi cümləyə heç bir kitabda, heç bir araşdırmada rast gəlmədim: "Bir səhvin olanda dön geri bax!!!"

Hə, atalar onu da deyib axı, nə tökərsən aşına... Geri baxanda o aşın içindəki qaşıqlar bilir həqiqəti. Bax, hər birimiz qanunu-qaydanı əzbərləməkdənsə, geri dönüb hesabat baxışı baxa bilmək təhlükəmiz ola bilər deyə, daim özünə hesabat versə, müxbirin sualına çox asan cavab verər: "Dünyaya yenidən gəlsəm elə özüm olmaq istəyərdim!!!" – Nə gözəl ifadədir, deyilmi?!

Mən şagirlərimə həmişə deyirəm ki, hər axşam yatmamışdan öncə beş dəqiqə özünlə danış, bir yad kimi, bu gün nə oldu, harada səhv etdim, kimin xətrinə dəydim – nə üçün; kim məni incitdi – nə üçün, niyə? Bax, bu "niyə"lərlə mən illərdir özümə hesabat verirəm. Bir yad kimi təhlil edir və nəticə çıxarıram. Dönüb geri baxanda da özümdə səhvlər görmürəm. Ona görə ki, təcrübənin xoş nəticəsinə sevinirəm.

Həyat dediyimiz hərəmizə bir cür yol verir, axı yol düz olmur, enişi var, yoxuşu var. Asan yolda şütüyürük, bacardım deyə, varam, qazandım deyə. Heç kimi, heç nəyi düşünmürük. Elə ki enişə, dərəyə çatırıq günahkar axtarırıq. Gah Tanrıdan küsürük, gah da bəndədən. Sonda da "alın yazısı beləymiş" deyə təskinlik tapırıq.

Bütün yaşadıqlarımızın yaşatdıqlarımız olduğunu heç düşünmürük. Kaş ki hər səhvimizdə dönüb geri baxa bilsəydik...

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TƏTİL



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Artıq yay mövsümünün o qızmar, təsirli günlərini yaşayırıq. Ətrafımızakılardan kimiləri artıq çantasını yığıb tətil üçün bir yerlərə yollanıb, kimiləri də "Bu il hara getsəm daha yaxşı dincələrəm?" deyə tətil planları haqqında düşünür. Kimiləri də "qonşudan qalma dala" psixologiyası ilə bank-bank gəzib dolaşdıqdan sonra yığdığı kreditlərlə planladığı tətil yolçuluğuna hazırlaşırlar. Şəhərin səs-küyündən, insanı əsəb xəstəsi edən tıxaclardan və gündəlik iş rejiminin yorğunluğundan qaçmaq istəyi bu mövsümdə hamımızın ortaq arzusuna çevrilir.

Biz tətili, əksər hallarda sadəcə "işə getməmək" və ya "boş vaxt keçirmək" kimi qəbul edirik. Lakin dərindən baxıldığında tətil insanın sosial bağlarını bərpa etməsi, öz daxili dünyasına nəzər salması və yaradılış qayəsini yenidən təfəkkür etməsi üçün gözəl bir fürsətdir.

Gündəlik qayğılar, gərgin iş qrafiki və rəqəmsal dünyanın bizi dörd tərəfdən mühasirəyə alması cəmiyyətdə insanı get-gedə tənhalaşdırır. Ən acınacaqlısı isə odur ki, bəzən eyni evdə yaşayan ailə fərdlərinin ünsiyyəti belə mexaniki bir hala çevrilir. Eyni damın altında valideynlər uşaqların necə böyüdüyünü görə bilmir, uşaqlar isə valideynlərin nəvazişini və qayğısını tam hiss edə bilmirlər.

Məhz bu məqamda tətil, ailə bağlarının yenidən canlandırılması üçün ən təsirli sosial vasitə kimi köməyimizə çatır. İş mühitinin gərginliyindən uzaqlaşaraq sevdiklərimizlə keçirdiyimiz zaman sadəcə ortaq xatirələr yaratmır, həm də ailədaxili etimad və səmimiyyəti yenidən bərpa edir. Tətil günlərində fərqli coğrafiyaları gəzmək, yeni insanlarla tanış olmaq, kənd həyatını və təbiəti müşahidə etmək insanın sosial dünyagörüşünü genişləndirir, cəmiyyətə və fərqli həyatlara qarşı empatiya hissini gücləndirir.

Məsələyə inanc pəncərəsindən baxsaq, islam dininin tənbəlliyi, vaxtı tamamilə boş və faydasız işlərə xərcləməyi bəyənmədiyini görərik. Möminin zamanı qiymətlidir. Lakin islam insanın psixoloji və bioloji ehtiyaclarını da heç vaxt göz ardı etmir. Böyüklərimizin "Ruhlarınızı zaman-zaman dincəldin, çünki ruhlar yorulduqda qəlb korlaşar" tövsiyəsində bədənin və zehnin istirahət haqqını açıq şəkildə ortaya qoyur.

Bizim anlayışımızda istirahət etmək tamamilə hərəkətsiz qalmaq və ya günlərlə yatmaq demək deyil. İnşirah surəsinin 7-ci ayəsində Uca Allah buyurur: "Bir işi bitirdikdə dərhal digər bir işə yönəl". Ayənin bizə ötürdüyü məntiq möhtəşəmdir: Tətil zehnimizi yoran gündəlik işlərdən ayrılıb, ruhumuzu bəsləyən digər faydalı sahələrə – kitaba, elmə, qohum ziyarətinə (sileyi-rəhmə) və xeyir əməllərə yönəlmək dövrüdür. İslamda tətil ibadətdən və məsuliyyətdən uzaqlaşmaq deyil, əksinə, ibadətləri daha gümrah və hüzurlu bir qəlblə yerinə yetirmək üçün enerji toplamaq mərhələsidir.

Tətilin ən önəmli, bəlkə də gözardı edilən tərəfi onun mənəvi yönüdür. Gündəlik şəhər səs-küyü, beton binalar və bitməyən işlər insanın daxili dünyasını aşındırır. Tətil günlərində təbiətin qoynuna çəkilmək, bir dənizin sakitliyini, uca dağların əzəmətini, yarpaqların rəqsini seyr etmək sadəcə vizual bir gözəllik deyil, eyni zamanda insanın ruhunu dincəldən böyük bir mənəvi dəstəkdir.

Qurani-Kərim bizə tez-tez yer üzünü gəzməyi və yaradılış möcüzələrinə baxmağı tövsiyə edir. Təbiətdəki bu mükəmməl nizamı seyr etmək dildə "Sübhanallah", qəlbdə isə dərin bir təfəkkürə çevrilir. İş mühitinin gurultusundan uzaqlaşan insan daxili səssizliyə qovuşur və öz ruhunun səsinə qulaq asır.

Nəticə olaraq deyə bilərik ki, tətil bir qaçış deyil, bir dönüşdür. İnsanın özünə, ailəsinə, təbiətə və Yaradanına doğru etdiyi mübarək bir səfərdir. Doğru planlaşdırılmış, daxili dünyamızı zənginləşdirən bir tətildən sonra insan işinə və cəmiyyətə sadəcə dincəlmiş bədənlə deyil; mənəviyyatı güclənmiş, zehni aydınlanmış və ruhu yenilənmiş bir fərd olaraq geri dönür.

# MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANDA İŞTİRAK EDƏNLƏRƏ PEDAQOQ TÖVSİYƏSİ

2026-cı ilin müəllimlər və müəllim olmaq istəyənlər üçün imtahanı 5 iyulda başlayır. Bu il ilk dəfə pedaqoqlar və bu peşəyə daxil olanlar eyni zamanda üç fəndən imtahan verə biləcəklər. Ümumilikdə fənn, xüsusi baş müəllim və baza peşə bacarıqları imtahanına 29000-dən artıq aplikant qeydiyyatdan keçib, onlar arasında bizim müsahibimiz – Tbilisi 221 saylı ictimai məktəbin ibtidai sinif müəllimi İrina Putkaradze də var.

İrina Putkaradze ötən illərdə ibtidai pillənin (I-IV) və idman (I-XII) imtahanını verib. Bu il isə vətəndaş təhsili (VII-XII) imtahanlarını vermək istəyir, ancaq buna baxmayaraq bizimlə söhbəti zamanı müəllimin kompetensiyasını təsdiqləməsini imtahanla deyil, "tam başqa cür təsəvvür etdiyini" deyir.

O düşünür ki, imtahanı "həyat və zaman tələb edir". Ancaq müəllim kompetensiyasını imtahanda deyil, sinif otağında təsdiqləməlidir. Təhsil, Elm və Gənclər Nazirliyi isə pedaqoqlar korpusu üçün məhz belə alternativ təklif etməlidir:

"Müəllimin necə olduğu imtahanla deyil, sinif nəticəsində olmalıdır. Niyə? – Ola bilsin müəllim imtahanı ideal şəkildə versin, amma bunların hamısını sinif otağında həyata keçirə bilməsin. İmtahanda topladığı bala uyğun dərs keçə bilməsin. Ona görə də sinif otağına gələcək, dərsdə iştirak edəcək və dərsi necə keçdiyimə baxacaq bir qrup olmalıdır. Müəllimin necə zəhmət çəkdiyini şagirdlərin nəticələri göstərməlidir. Sənin şagirdin sənin simandır. Buradan irəli gələrək, düşünürəm ki, sinifdə 28-29 uşaq varsa və onun 20-sinin ideal şəkildə akademik göstəricisi varsa, burada artıq təsdiq edilməli heç nə yoxdur.

Mənim Təhsil Nazirliyinə əsas sözüm də bu olardı ki, imtahana alternativ hazırlasınlar, bütün fənn, aparıcı-mentor imtahanlarından keçmiş müəllimləri qiymətləndirsinlər. Onların nəticələri itməməlidir, pedaqoqları qiymətləndirəcək fərqli alternativ yol hazırlanmalıdır".

Pedaqoq İrina Putkaradzenin qeyd etdiyi kimi, imtahan və ya onun hər hansı bir alternativi olmasından asılı olmayaraq, müəllim yeniliklərə və çağırışlara hər zaman hazır olmalıdır – "Əgər müəllim olmaq istəyiriksə, inkişaf haqqında da düşünməliyik; əgər inkişaf etmək istəmiriksə, başqa peşə seçməliyik":

"Mənim müşahidəmə görə, müəllimlər həmişə çətinliklərdən qorxurlar, xüsusilə 60 yaşdan yuxarı müəllimlərdən söhbət gedir. Hər yaşda olan müəllimlərə deyərdim, əgər sən bu peşəyə girirsənsə bilməlisən ki, tez-tez yeniliklər, çətinliklər, yeni inkişaf yolu da olacaq və sən bunu qorxu ilə deyil, inamla qarşılamalısan. Əgər inkişaf etmək istəmiriksə, o zaman başqa peşə seçməliyik.

Bəzisi düşünür ki, müəllimlik asandır və bu peşəyə daxil ola biləcək. Günortaya qədər işləyəcəm, yayda istirahət edəcəm. Belə adamlara da müraciət edirəm: Yayda da sentyabrdan şagirdlər və öz peşəkar inkişafın üçün nə edəcəyini düşünməlisən. Əgər belə düşünməsəniz inkişaf olmayacaq. Zaman keçdikcə daha fərqli uşaqlar gəlirlər. Belə halda, əgər hazırlıq olmasa, daha çox oxumasanız bu uşaqlar üçün hazır olmayacağıq. Ona görə də əgər müəllim olmaq istəyiriksə, inkişaf barədə də düşünməliyik".

***Müəllim imtahanında iştirak edənlərə tövsiyələr:***

2026-cı ilin müəllim imtahanı və pedaqoqların imtahan qabağı həyəcanı ilə bağlı İrina Putkaradze öz təcrübəsinə əsaslanaraq bildirir ki, müəllim imtahana yaxşı hazırlaşmalıdır, imtahan prosesində isə məsələlərin ardıcıllığını qorumalı, vaxtı düzgün bölməlidir:

"Pedaqoqlar əsasən ötən illərin testlərinə baxırlar, əvvəlcədən həyəcanlanırlar və düşünürlər ki, imtahan çətindir. Ancaq bizim əsas məsləhətimiz budur ki, ötən illərin materialları ilə tanış olmasınlar, imtahanlara daxil edilmiş məsələlərlə tanış olsunlar. Mühüm mövzuları yazsınlar və imtahan günündən əvvəlki gecə deyil, imtahana 15 gün qalmış baxsınlar. Müəllim imtahana yaxşı hazırlaşmalıdır. Əgər pedaqoq bu məsələlərə baxmasa, nələrisə axtarmasa, oxumasa, imtahanı vermək çətin olacaq. Ümumiyyətlə, hər şeyi birdən-birə xatırlamaq çox çətindir. Ona görə də yaxşı olar ki, əsas məsələləri qeyd etsinlər və nəzərdən keçirsinlər.

İmtahanda mühümdür ki, məsələlərin ardıcıllığına riayət edəsən. Çünki nisbətən asan məsələlərdir, sonra orta, sonda isə çətin olur. Sən işə çətinlə işləməyə başlayırsan və beynin yorulur, sonra ola bilsin asan məsələ də sizə çox çətin görünsün. Həmçinin yazarkən cavabları cavab vərəqinə köçürməyiniz də vacibdir. Ola bilsin ki, sonda vaxtınız çatmasın və cavabları köçürərkən səhvlərə yol verəsiniz".

Bizim müsahibimiz müəllim imtahanında iştirak edənlərə yaxşı nəticə əldə etmək üçün imtahan prosesinə qarşı pozitiv əhvali-ruhiyyəni qoruyub saxlamağın mütləq olduğunu da tövsiyə edir.



"Məndən daha təcrübəli, peşəkar və nəzəri, yaxud praktiki olaraq öz işini bilən müəllimlər imtahana gedib, ancaq stresə görə imtahanı verə bilməyiblər. Əhvali-ruhiyyənin böyük əhəmiyyəti var. İmtahandan keçə biləcəyinizə dair hər zaman əvvəlcədən daxili bir inam, müsbət əhvali-ruhiyyə yaratmalısınız. "Əgər kəsilsəm..." deyə düşünməməlisiniz və bu imtahanın həyatınızda hər şeyi həll etdiyini zənn etməməlisiniz. Düşünməlisiniz ki, bununla nə hər şey bitir, nə də hər şey başlayır. Hesab etməlisiniz ki, bu, adi bir gündür – "Yaxşı nəticə olsa – əla, olmasa da – eybi yoxdur, özümü oda-közə vurmaram, gələcəkdə bir daha sınayaram".

Hər hansı bir imtahanda lazımi balı toplaya bilməməyiniz sizin peşəkar olmadığınız mənasına gəlmir. Biz heç nəyi sübut etmirik. Sadəcə həyat və zaman tələb edir ki, [kompetensiyanızı] təsdiqləyəsiniz. Bütün bunlar bizə kvalifikasiyamızı yüksəltmək və "yaxşı" – bir az daha çox maaş almaq üçün lazımdır. Məsələyə daha səthi yanaşın, onda hər şey daha yaxşı alınacaq", – deyə İrina Putkaradze EDU.ARIS.GE-yə müsahibəsində bildirib.

*Mənbə: edu.aris.ge*
Gürcü dilindən tərcümə etdi
**Aynurə Əliyeva**

# VAHİD MİLLİ İMTAHANLAR İYULUN 2-DƏN BAŞLAYIR

**Fənlər üzrə 2026-cı il vahid milli imtahanların keçiriləcəyi tarix aşağıdakı kimidir:**

**Gürcü dili və ədəbiyyatı:**
2 iyul (birinci və ikinci sessiya);
3 iyul (birinci və ikinci sessiya).

**Osetin dili:**
2 iyul (birinci sessiya).

**Xarici dil:**
6 iyul (birinci və ikinci sessiya) – İngilis dili;
7 iyul (birinci və ikinci sessiya) – İngilis dili;
8 iyul (birinci sessiya) – Rus dili;
8 iyul (birinci sessiya) – Alman dili;
8 iyul (birinci sessiya) – Fransız dili.

**Riyaziyyat:**
10 iyul (birinci və ikinci sessiya).

**Tarix:**
13 iyul (birinci və ikinci sessiya);
14 iyul (birinci sessiya).

**Kimya:**
14 iyul (ikinci sessiya).

**Vətəndaş təhsili:**
15 iyul (birinci sessiya).

**Biologiya:**
16 iyul (birinci sessiya).

**Ümumi bacarıqlar (Erməni dilində):**
17 iyul (birinci sessiya).

**Ümumi bacarıqlar (Azərbaycan dilində):**
17 iyul (birinci sessiya).

**Təsviri və tətbiqi sənət:**
17 iyul (birinci sessiya).

**Coğrafiya:**
20 iyul (ikinci sessiya).

**Ədəbiyyat:**
21 iyul (birinci sessiya).

**Fizika:**
22 iyul (birinci sessiya).

# MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 5-DƏN BAŞLAYIR

**Sizə 2026-cı il fənn, xüsusi baş müəllim və baza peşə bacarıqları imtahanlarının tarixini təqdim edirik:**

**5 iyul – ikinci sessiya:**
Baş xüsusi müəllim imtahanı.

**7 iyul – birinci sessiya:**
Fizika (VII-XII).

**8 iyul – birinci sessiya:**
Coğrafiya.

**9 iyul – birinci sessiya:**
Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
Gürcü dili və ədəbiyyatı (I-VI);
Riyaziyyat (I-VI).

**9 iyul – ikinci sessiya:**
Təbiətşünaslıq (I-VI);
Rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
Erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər).

**10 iyul – birinci sessiya:**
Musiqi.

**10 iyul – ikinci sessiya:**
Kimya (VII-XII).

**12 iyul – ikinci sessiya:**
Biologiya (VII-XII).

**13 iyul – birinci sessiya:**
İngilis dili (I-XII) (yazılı hissə);
İtalyan dili (I-XII).

**14 iyul – ikinci sessiya:**
Alman dili (I-XII) (yazılı hissə);
Fransız dili (I-XII) (yazılı hissə).

**15 iyul – birinci sessiya:**
Rus dili (I-XII) (yazılı hissə).

**16 iyul – birinci sessiya:**
Riyaziyyat (VII-XII).

**17 iyul – ikinci sessiya:**
Gürcü dili (qeyri-gürcüdilli məktəblər üçün) (yazılı hissə).

**19 iyul – birinci və ikinci sessiya:**
Gürcü dili (qeyri-gürcüdilli məktəblər üçün) müəllimlərinin danışıq hissəsi.

**19 iyul – üçüncü sessiya:**
Rus dili (I-XII) müəllimlərinin danışıq hissəsi.

**19 iyul – dördüncü sessiya:**
Alman dili (I-XII); Fransız dili (I-XII); İtalyan dili (I-XII) müəllimlərinin danışıq hissəsi.

**19 iyul – beşinci, altıncı, yeddinci, səkkizinci, doqquzuncu, onuncu sessiya:**
İngilis dili (I-XII) müəllimlərinin danışıq hissəsi.

**20 iyul – birinci sessiya:**
Gürcü dili və ədəbiyyatı (VII-XII).

**21 iyul – birinci sessiya:**
Vətəndaş təhsili (VII-XII).

**22 iyul – birinci sessiya:**
Kompüter texnologiyaları (yazılı hissə).

**23 iyul – birinci sessiya:**
Erməni dili.

**24 iyul – birinci sessiya:**
Azərbaycan dili.

**26 iyul – birinci və ikinci sessiya:**
Kompüter texnologiyaları (praktiki hissə).

**27 iyul – birinci sessiya:**
İdman.

**28 iyul – birinci sessiya:**
Tarix (VII-XII);
Baza peşə bacarıqları imtahanı.

**29 iyul – birinci sessiya:**
Təsviri və tətbiqi sənət.

# YOXSUL TEATR



*Antonen Arto*

Başlığı oxuyarkən yəqin düşünəcəksiniz ki, indi Anar yenə öz teatrının problemlərindən, şəraitsizlikdən, imkansızlıqdan dəm vuracaq. Xeyr, bu dəfə mövzumuz bu deyil. Problemlərimizlə onsuz da cəmiyyət illərdir tanışdır. Təəssüf ki, heç nə düzəlmir. Daha da təəssüf doğuran odur ki, artıq düzələcəyinə də inamım yoxdur. Buna baxmayaraq, axtarışlarım, araşdırmalarım davam edir.

Son zamanlarda teatr tarixində dərin izləri olan reformator-novator rejissorları, bu sahədə nəzəriyyələrə sahib şəxsləri və onların nəzəriyyələrini öyrənməyə çalışıram. Bu prosesdə mənə bir çox maraqlı məqalə və araşdırma yazıları göndərən İrəvan Dövlət Azərbaycan Dram Teatrının baş rejissoru, hörmətli Gümrah Ömər bəyə təşəkkürlərimi bildirirəm.

Öncəliklə, novator rejissor nə deməkdir? Gəlin ilk öncə bundan başlayaq. Novator rejissorlar teatra fərqli metodlar, anlayışlar gətirən, eksperimental yanaşmalara sahib olan və bunları tətbiq edən rejissorlardır. Bir başqa və sadə dillə desək, onlar əksəriyyətin getdiyi klassik yolu seçən yox, daha fərqli yol izləyən, alternativ təqdim edən şəxslərdir.

Onda belə çıxır ki, hər fərqli tərzə sahib olan rejissor novatordur? Xeyr, əlbəttə ki! Bunun üçün sənin öz metodunla, fəlsəfənlə bağlı geniş bir manifestin olmalıdır. Daha da önəmlisi, açmağa çalışdığın bu yol teatr dünyasında qəbul görməli, başqaları tərəfindən də davam etdirilməlidir.

Novator rejissorun nə demək olduğunu az-çox anladıqsa əgər, bir az da bu sahədə teatrda adına ən çox rast gələcəyimiz şəxslər barəsində danışaq. Bunlardan ilki Antonen Arto və onun "Qəddarlıq teatrı" manifestidir.

1930-cu illərdə Arto "Qəddarlıq teatrı"na dair iki manifestini irəli sürdü. Daha sonra isə bu ideyaları "Teatr və onun oxşarı" adlı əsərində bir araya gətirdi. Artonun manifestinin əsas ideyası ondadır ki, teatr tamaşaçını sarsıtmalıdır, söz ikinci plandadır, bədən, səs, ritm və işıq əsas vasitələrdir.

Lakin Arto, təəssüf ki, ömrünün bir hissəsini ruhi xəstəxanada keçirdiyi və gənc sayıla biləcək bir yaşda vəfat etdiyi üçün onun ideyaları əsasən nəzəriyyədə qaldı. Ancaq onun açdığı bu cığır teatrda bir çox şəxsə ilham mənbəyi oldu.

1960-cı illərdə isə Yeji Qrotovski "Yoxsul teatr", Piter Bruk



*Yeji Qrotovski*

isə "Boş məkan" adlı kitabında öz nəzəriyyəsini açıqladı. Qrotovskinin əsas ideyası: dekor minimuma endirilir, texnika minimumdur, teatrın mərkəzində yalnız aktyor və tamaşaçı qalır. O, Artonun "Qəddarlıq teatrı"ndan ciddi şəkildə təsirlənmişdi, amma onu başqa istiqamətə inkişaf etdirdi. Arto daha çox tamaşaçının hisslərinə hücum etməyi düşünürdüsə, Qrotovski teatrda əsas gücü aktyorun daxili dünyasında görürdü.

Son olaraq Brukdan bəhs etsək, baxmayaraq ki, o, həm Artodan, həm Qrotovskidən təsirlənmişdi, lakin bir az fərqli yol izləyirdi. Brukun məşhur cümləsi: "İstənilən boş məkanı götürürəm. Bir adam o məkandan keçir, başqa biri ona baxır və bu artıq teatr üçün kifayətdir". O, bu cümləni sadəcə deməklə kifayətlənməyib, öz praktikasında da əməl edib. Xüsusilə 1970-ci illərdə həyəti ilə birgə Afrika, Yaxın Şərq və digər bölgələrə etdiyi səfərlər zamanı çox sadə şəraitdə çıxışlar edib. Onlar bəzən boş həyətlərdə, kənd meydanlarında, məktəblərdə, anbarlarda, açıq məkanlarda tamaşalar nümayiş etdirirdilər.

Bu arada istər Qrotovski, istərsə də Bruk, çarəsizlikdən, imkansızlıq ucbatından bu yola addım atmayıblar. Onlar çox geniş imkanlara sahib olublar. İstəsələr ən böyük teatrların ən özəl vəzifələrində çalışa bilərdilər. Buna baxmayaraq onlar rahat və hazır olanı seçməyiblər. Teatrda fərqli bir anlayış, yeni bir dalğa, yeni bir yol açmağa çalışıblar. Məhz buna görə də bu gün adları tarixdə qalıb və onları gerçək novator rejissor adlandırmaq olar.

Bəs mən bunları necə və niyə araşdırmağa başladım? Qısaca bundan da bəhs edim.

Mən istər tərz olaraq, bəzən isə şərait yoxluğuna görə minimalist üsulda tamaşalar hazırlayıram. Məsələn, quruluş verdiyim son tamaşada sadəcə dörd stul, bir jurnal masasından istifadə etmişdim. Keçən il beynəlxalq teatr festivalına apardığım tamaşada iki aktyorum, iki də park oturacağından başqa səhnədə heç nəyim yox idi.

Festivaldakı 12 tamaşa arasında sadəcə bizim tamaşada tüstü effektindən istifadə olunmadı. Çünki gərək duymadım. Digər tamaşalarda isə lazımlı-lazımsız bir çox səhnədə tüstü effektindən istifadə olundu. Bir şeyi istifadə edə bilərsən demək onu mütləq istifadə etməlisən anlamına gəlmir.

Bundan əlavə, festivalda yeganə tamaşa bizim tamaşa idi ki, işıqlandırmamız sadə və sabit idi. Digər tamaşalarda işıqlar o qədər rəngarəng və tez-tez dəyişirdi ki, bəzən aktyorların üzünü görmək belə olmurdu. Bəli, qəbul edirəm ki, tamaşada xüsusi anlar var ki, bundan istifadə etmək lazımdır. Amma daha bütün tamaşa boyunca səhnəni gecə klubu görüntüsünə bürümək düzgün deyil deyə düşünürəm.

Yenə də öz-özümə düşündüm ki, görəsən onlar hər şeyi doğru edir, bəlkə mən səhv edirəm. Bəlkə mənim etdiklərim və düşündüklərim, ümumiyyətlə, teatr dünyasında qəbul görmür.



Özümü, tərzimi və verdiyim quruluşları sorğulayarkən, bir yandan da araşdırmalar etməyə, teatr kitablarını yenidən vərəqləməyə başladım. Qarşıma çıxdı ki, mən əslində fərqinə belə varmadan bir az Artonun "Qəddarlıq teatrı"ndan, bir az Qrotovskinin "Yoxsul teatrı"ndan, bir az da Brukun "Boş məkan"ından nələrsə götürmüşəm.

Mən böyük dekorlara sahib, ən özəl kostyumlardan, ən rəngli işıqlardan istifadə olunmuş çox tamaşalar görmüşəm, hansı ki, tamaşaçı yarım saat sonra sıxılaraq zalı tərk edib. Buna görə də mənim üçün önəmli olan mövzu, ötürüləcək duyğu və mesajdır. Bu duyğu və mesajın təsirli bir şəkildə ötürülməsi üçün isə yüksək aktyor performansına önəm verirəm. Və mən də gerçəkdən istəyirəm ki, tamaşaçı teatrdan sarsılaraq ayrılsın.



*Piter Bruk*

Son olaraq, "Yoxsul teatr" deyəndə burada hansısa bir kasıbçılıqdan söhbət getmir. Rituallardan yaranan sənətin özünə qayıtması, texnologiyanın əsirinə çevrilməməsi, bir sözlə, vurulmağa çalışılan zəncirləri qırıb öz saf halına bürünməsidir "Yoxsul teatrı".

**Anar Rafiqoğlu**
*"Era Teatrı"nın bədii rəhbəri, rejissor*

# PROBLEMİN KÖKÜ HARADADIR?



Bazar sözü ən geniş mənada satıcı və alıcıların alış-veriş etdiyi məkan, həmçinin iqtisadi mübadilə mühiti deməkdir. Söz fars mənşəli "bazar" sözündən götürülüb və Azərbaycan dilində bir neçə fərqli kontekstdə istifadə olunur:

- Ticarət məkanı: Əsasən kənd təsərrüfatı və gündəlik tələbat mallarının açıq və ya qapalı ərazidə satıldığı yer (meyvə-tərəvəz bazarı və s.).
- İqtisadiyyatda: Alıcılar və satıcılar arasında tələb və təklif əsasında mal və xidmətlərin mübadiləsini təmin edən qlobal və ya yerli proses.
- Həftənin günü: Həftənin yeddinci, yəni şənbədən sonrakı günü (Bazar günü).

Azərbaycan dilinin izahlı lüğətindən də aydın olduğu kimi, bazar həftənin yeddinci günü olur. Qardabanidə də yerli əhali üçün məhz həmin gün açıq bazar təşkil edilir. Ancaq şəhərdə həftənin digər günlərindəki mənzərə adama elə bir təəssürat yaradır ki, sanki hər gün bazar günüdü. Küçələr satış piştaxtasına, səkilər ticarət sıralarına çevrilib.

Qardabani şəhərində fəaliyyət göstərən mərkəzi bazar uzun illərdir ki, həm yerli sakinlərin alış-veriş etdiyi, həm də yüzlərlə ailənin dolanışıq mənbəyi olan mühüm ticarət məkanlarından biridir. Burada kənd təsərrüfatı məhsulları, geyim, məişət əşyaları və müxtəlif şeylər satılır. Bazar təkcə ticarət məkanı deyil, həm də rayonun sosial və iqtisadi həyatının ayrılmaz hissəsidir. Lakin son illər burada yaranan problemlər həm sahibkarların, həm alıcıların, həm də ümumilikdə şəhər sakinlərinin narahatlığına səbəb olub.

Universitetdə bu semestr tədris olunan "Gürcüstanın sosial-iqtisadi coğrafiyası" fənni zamanı maraqlı bir hadisə yaşadım. Dərsi deyən lektor universitetimizin ən hörmətli lektorlarından biridir. İlk dərsdə siyahı üzrə adımı oxuyanda hansı bölgədən olduğumu soruşdu. Kvemo Kartli, Qardabani cavabını verəndə üzündə təəccüb hiss olundu. Sonradan bunun səbəbini də izah etdi. Dedi ki, uzun illərdir dərs desə də, Qardabanidən tələbələrə çox az rast gəlib. Bölgədə apardığı araşdırmalar və statistik göstəricilər də bunu təsdiqləyir. Onun sözlərinə görə, Kvemo Kartlidə əhalinin böyük hissəsi kənd təsərrüfatı və heyvandarlıqla məşğuldur və ali təhsil alan gənclərin sayı digər bölgələrlə müqayisədə aşağıdır.

Bu fikirlər məni düşündürdü. Çünki doğrudan da, etnik azlıqların sıx yaşadığı bölgələr haqqında hazırlanan sosial-iqtisadi hesabatlarda Kvemo Kartli inkişaf göstəricilərinə görə ön sıralarda yer almır. Bunun səbəbi isə yalnız statistika deyil, illərlə yığılıb qalan problemlərdir. Təhsil alan, diplom alan gənclər belə öz ixtisaslarına uyğun iş tapa bilmədikləri üçün bazarlarda, əkin sahələrində və müxtəlif təsərrüfatlarda işləməyə məcbur qalırlar. Əlbəttə, zəhmətlə qazanılan hər bir peşə hörmətə layiqdir. Ancaq ali təhsil almış bir gəncin öz bilik və bacarığını tətbiq edə bilməməsi cəmiyyət üçün ciddi siqnaldır.

Bazarda müşahidə olunan problemlər də bu ümumi mənzərənin bir hissəsidir. Rəsmi qaydada bazarda yer icarəyə götürən, vergisini və ödənişlərini edən sahibkarlar fəaliyyət göstərirlər. Digər tərəfdən isə bazarın girişində, küçələrdə və əsas yolun kənarında heç bir rəsmi icazə olmadan satış həyata keçirən şəxslərə (daha doğrusu nənələrə) rast gəlinir. Bu isə həm qanunsuz, həm də ədalətsizdir.

Məsələnin ən düşündürücü tərəflərindən biri də odur ki, bazarda küçə ticarəti ilə məşğul olanlar arasında ali təhsilli insanların, hətta müəllimlərin də olduğu bildirilir. Burada söhbət heç də zəhmətlə çörək qazanmaqdan getmir. Əksinə, hər bir peşə sahibi kimi onların da işləmək və ailəsini dolandırmaq hüququ var. Problem fəaliyyətin harada və hansı şəraitdə həyata keçirilməsindədir. Axı müəllimlərimiz bizə illər boyunca qanun-qaydanı, nizam-intizamı, etik qaydaları başa salan həmin şəxslərdir; əhaliyə yardım etməli, ölkəmizin, yaşadığımız yerin abadlaşması üçün əlimizdən gələni etməli olduğumuzu qulağımıza sırğa edən şəxslərdir.

Küçə ticarəti bir sıra problemlər yaradır. Piyadaların hərəkəti çətinləşir, nəqliyyatın hərəkətində sıxlıq yaranır, bazarın ətrafında nizamsızlıq hökm sürür. Ən ciddi məsələ isə sanitariya vəziyyətidir. Ana yolun kənarında avtomobillərin yaratdığı toz, tüstü, küçə heyvanları və müxtəlif çirkləndiricilər arasında xüsusilə ərzaq, eləcə də süd məhsullarının satılması insan sağlamlığı üçün risk daşıyır.

Bu problemlərlə bağlı sakinlər dəfələrlə aidiyyəti qurumlara, meriyaya müraciət etdiklərini bildirirlər. Yerli idarəetmə orqanları isə bəzi hallarda bunun onların səlahiyyətində olmadığını, müəyyən məsələlərə digər qurumların cavabdeh olduğunu qeyd edirlər. Lakin sadə vətəndaş üçün əsas məsələ məsuliyyət bölgüsü deyil, problemin həllidir. Əgər meriya şəhərin problemləri ilə maraqlanmırsa onda bu məsələnin həlli ilə kim məşğul olmalıdır?

Bir şəhərin inkişafı yalnız yeni binaların tikilməsi və ya statistik rəqəmlərin dəyişməsi ilə ölçülmür. Əsl inkişaf insanların təhsil ala bilməsində, ixtisasına uyğun iş tapmasında, sahibkarlar üçün bərabər rəqabət şəraitinin yaradılmasında, şəhərdə qanunların hamıya eyni tətbiq olunmasında və vətəndaşların sağlam, təhlükəsiz mühitdə yaşamasında özünü göstərir.

Qardabani böyük potensiala malik rayondur. Bu potensialdan düzgün istifadə etmək üçün təhsilə, gənclərə, sahibkarlığa və qanunun aliliyinə daha çox diqqət yetirilməlidir. Şəhərin inkişafı üçün mövcud problemlərə biganə qalmaq olmaz. Qanun hamı üçün eyni tətbiq olunmalı, küçə ticarəti nəzarət altına alınmalı, sahibkarlar üçün bərabər şərait yaradılmalı və şəhərin abadlığına daha çox diqqət yetirilməlidir. Ümid edirəm ki, bir gün doğrudan da aidiyyəti qurumlar mövcud vəziyyəti diqqətdə saxlayacaq, problemlərin həlli istiqamətində konkret addımlar atacaq və Qardabani həm yaşayış, həm də ticarət baxımından daha müasir, təhlükəsiz və nizamlı şəhərə çevriləcək. Bunun üçün sadəcə bir az səy tələb olunur.

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 3-cü kurs tələbəsi*

# HƏR ŞEY ÖZÜNÜ SEVMƏKLƏ BAŞLAYIR



Bəli, həyatda hər şey insanın özünü sevməsi ilə başlayır. İnsan öz dəyərini başqalarının gözündə deyil, ilk əvvəl öz qəlbində tapmalıdır və o zaman insan həqiqətən azad olduğunu hiss edir. Çünki özünü sevən insan güzgüdə qüsurlarını görən deyil, dəyərini görməyi bacaran insandır; başqalarından sevgi gözləməzdən əvvəl öz qəlbində özünə yer verməyi öyrənən insandır.

Cəmiyyətimizdə çox vaxt özünü sevən, özünü ön planda tutan insanlara yanlış yanaşılır. Bəzən insan öz ehtiyaclarını düşündükdə, öz hüquqlarını qoruduqda və ya özünə vaxt ayırdıqda ona "eqoist", "narsist" kimi damğalar vurulur. Bu səbəbdən bir çox insan başqalarını razı salmağa çalışır, öz hisslərini və istəklərini ikinci plana keçirir. Halbuki insanın özünü sevməsi hər zaman eqoizm, ya da narsizm deyil. Əksinə, bir çox hallarda sağlam və xoşbəxt həyatın əsas şərtlərindən biridir.

Özünü sevmək insanın özünü olduğu kimi qəbul etməsi, dəyərli olduğunu bilməsi və özünə hörmətlə yanaşması deməkdir. Bu, insanın qüsursuz olduğunu düşünməsi deyil. Hər bir insanın qüsurları, səhvləri, çatışmazlıqları və yanlış tərəfləri var. Özünü sevən insan bunları inkar etmir, əksinə, qəbul edir və səhvlərini düzəltməyə, sevilməyən xasiyyətini dəyişməyə, özünü inkişaf etdirməyə çalışır. Özünə hörmət etməyən insan başqalarından hörmət gözlədikcə yorular, öz dəyərini bilən insan isə heç vaxt özünü itirməz.

Təəssüf ki, bir çox insan özünü yalnız başqalarının fikirləri üzərindən qiymətləndirir. Əgər tərif eşidirsə özünü dəyərli hiss edir, tənqid eşitdikdə isə özünə olan inamını itirir. Halbuki insanın dəyəri başqalarının ona necə baxması ilə ölçülməməlidir. İnsan ilk növbədə öz gözündə dəyərli olmağı bacarmalıdır. Necə deyərlər başqaları sən onlara qulaq asdıqca varlar. Əslində, insan özünü qəbul etməyi bacardığı gün başqalarının fikirlərinin əsarətindən də azad olur.

Özünü sevməyən insan çox vaxt başqalarının sevgisindən asılı vəziyyətə düşür. Gördüyü hər işdə daim başqaları tərəfindən təsdiq axtarır, hər kəsi razı salmağa çalışır və qarşısındakına "yox" deməkdə çətinlik çəkir. Nəticədə isə həm emosional yorğunluq yaşayır, həm də öz şəxsiyyətini itirməyə başlayır. Çünki insan başqalarını xoşbəxt etməyə çalışdıqca öz xoşbəxtliyini unutmağa başlayır.

Özünü sevmək həm də öz sərhədlərini qorumaqdır. İnsan bilməlidir ki, hər kəsə kömək etmək, hər istəyə "hə" demək və hər problemin yükünü daşımaq onun vəzifəsi deyil. Bəzən öz rahatlığını və psixoloji sağlamlığını qorumaq üçün "yox" da demək lazımdır. Bu, eqoizm deyil, özünə hörmətdir.

Eqoist insan, eləcə də narsist insan yalnız öz maraqlarını düşünür və başqalarının hisslərinə, düşündüklərinə əhəmiyyət vermir. Özünü sevən insan isə həm özünə, həm də ətrafındakılara dəyər verir. Aradakı əsas fərq də məhz budur. Özünü sevən insan başqasını əzmədən öz hüquqlarını qoruyur, eqoist, ya da narsist insan isə öz maraqları üçün başqalarını görməzdən gəlir.

Psixoloqlar da qeyd edirlər ki, insanın başqalarına sağlam sevgi verməsi üçün əvvəlcə özünü sevməyi öyrənməlidir. Çünki daxilən boş olan insan başqasını da tam şəkildə sevə bilməz. Özünü qəbul edən və öz dəyərini bilən insan münasibətlərdə daha güclü, daha anlayışlı və daha xoşbəxt olur.

Müasir dövrdə insanlar sosial şəbəkələrdə gördükləri həyatlarla öz həyatlarını müqayisə etməyə başlayırlar. Bu isə özünəinamın azalmasına səbəb olur. İnsan başqasının uğuruna baxıb özünü dəyərsiz, heç nəyi bacarmayan biri kimi hiss etdikcə özünə olan sevgisini itirir. Halbuki hər insanın yolu, həyatı və hekayəsi fərqlidir. İnsan özünü başqaları ilə deyil, dünənki özü ilə müqayisə etməlidir və hər kəs bilməlidir ki, özünü sevmək başqalarından üstün olmaq deyil, özünü heç kimdən aşağı görməməkdir.

Nəticə olaraq, özünü sevmək eqoizm, ya da narsizm deyil, insanın özünə verdiyi dəyərin göstəricisidir. Özünü sevən insan həm özünü, həm də ətrafındakı insanları daha sağlam şəkildə sevməyi bacarır. İnsan özünü qəbul etdikcə, özünə hörmət etdikcə və öz dəyərini bildikcə daha xoşbəxt və daha güclü olur. Unutmamalıyıq ki, başqalarına sevgi verməyin ən sağlam yolu əvvəlcə özümüzə sevgi və mərhəmət göstərməkdən keçir.

**Afaq Azər**

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

Qalaktioninin üçüncü arvadı 10 dəfə abort etdirmiş Nino Kvirikadze idi. Nino ilə Qalaktion 1916-cı ildə tanış olmuş və onu çox bəyənmişdi, lakin 1918-ci ildə Nino Dimel David Ebanoidze ilə evləndi. General D.Ebanoidze 1937-ci ildə güllələndi və Nino Kvirikadze dul qaldı və generaldan iki uşağı – bir oğlan və bir qız qaldı. Bu hadisədən 4 il sonra Qalaktionun ilk arvadı da güllələndi. Olqanın güllələnməsindən 2 il sonra, 1943-cü ildə Qalaktion Nino Kvirikadze ilə evləndi. Onlar 16 il birlikdə yaşadılar. Uşaqları olmadı. Nino Kvirikadze Qalaktionun rəsmi arvadı kimi dövlət hesabına dəfn edildi.

***Qalaktionun gündəliyi – 631-8-(tarixsiz):***

"Qrup ilk turda uduzdu. Olqa Yuriyevna qalmaqallı şəkildə mənzilimdən qaçmağa məcbur oldu. Ona güvənənlər (İ.Abaşidze və başqaları) boşda qaldılar. Onlar fərqli bir yol seçməli oldular.

Besiki meydanının yaxınlığındakı Mtatsmindada Nino yaşayır və o, mənim "Meri" adlı şeirimi onun barəsində yazıldığını yayır (xuliqanlıq bundan daha uzağa gedə bilməz). Onlar bu xaosdan istifadə edərək mənimlə yaşamaq üçün mənzilimə girməsini tələb etdilər. Macəraçı qadın bunu bacardı. O, üz-üzə mənzilimə girdi və mən ondan heç cür qurtula bilmədim. On dəfə abort etdirdi, bir oğlu, bir qızı var: Dutu və Nunu. Hər ikisi də başıma əməl açdılar. Dutu mənim yemək kartımı götürdü və üç ildir ki, istifadə edir; Nunu hələ də nahar yeməyi və şam yeməyi üçün bizimlədir və loxmanı əldən alır. Bu hələ heç nədir. Evi tamamilə boşaltdılar: Evimdən ayaqqabı, alt paltarı, kostyum və bir çox başqa xırda şeylər oğurlayıblar. Mənim köməyimlə Ninanın qardaşı torpaq alıb və onu becərir – Bağdadda. Əvvəlcə akademiyadan götürülmüş "payok"u hələ evinə aparacaq və axşam yanıma gələcək... Mənim xəstəliyim dövründə mənzilinə yorğan və bir çox başqa şeylər daşıyıb. Hər şeyi necə sadalayacağımı bilmirəm – bu qadının hansı iyrəncliklər etdiyini. Böyük sevgidən yanıma gəldiyini iddia edir, amma, əslində, vicdanı xəyanətə uğramış, abırını itirmiş və tamamilə vicdansız bir insandır. Onu qrup göndərdiyini haradan bilirəm?"

***Qalaktion üçüncü həyat yoldaşı – Nino Kvirikadze haqqında danışır:***

"Mənim kneynam (Nino) günortadan bəri əsəblərimi pozurdu. Öz-özümə düşünürəm. Görəsən, necə bir şey edə bilirəm.

Tramvayda kimsə icazəsiz qarşımızda dayanmağa cəsarət etdiyi üçün dava saldı. Kassada, birbaşa getmədiyimiz üçün, univermaqda dava saldı, çünki satıcı təsadüfən limonad əvəzinə pivə açdı: Əsəbiləşdi və mağazadan qaçdı, sonra yolda mənə çatdı və qışqırdı: Deməli, cənab, bundan sonra sən özün üçünsən, mən də özüm üçün... və harasa qaçdı.

Yazıçılar Birliyinə getdim, baxdım, o yenə orada idi və o, yenidən mənimlə dava saldı: Bundan sonra sən özün üçün, mən də özüm üçün, yenə qaçdı.

Bir az sonra tərcüməçim Giorgi Saqareli ilə danışarkən yenidən özünü mənə yetirdi. Mənim haqqımda danışmağa başladı: Ey, siz nə bilirsiniz Qalaktion nə qədər zəif və axmaqdır.



Yazıçılar Birliyində kimsə bir qadın mənimlə danışdı. İndi o ağlını itirib: Səninlə necə danışırdı, kim idi, hər şey sənin günahındır.

Onu kinoya aparanda bir erməniyə elə yanaşdı ki, guya dirsəyi ilə toxunur. Və biz lojada oturanda o qədər yöndəmsiz oturdu ki, qaranlıqda arxasında oturan kişi ilə münasibət qurmağa çalışdığını düşünərdin.

Ayağa qalxıb lojadan çıxdım. Kneyna də mənim arxamca gəldi. Məni bir addım belə tək qoymur və bir dəqiqə də olsun mənə nəsə xoşagəlməzlik etməsə olmur.

O, birbaşa dözülməzdir. Özü də nə vaxt!

O, mənə tamamilə kinayə edərək, özündən çıxaraq mənə mane olur. Buna son qoyulmalıdır. Belə yaşamaq mümkün deyil. Mən nəsə etməliyəm"...

*(Qalaktionun gündəliyindən, 1948)*

***Qalaktionun ögey qızı Nunu Ebanoidzenin xatirələrindən:***

"Qalaktion Tabidze və anam – Nino Kvirikadze ilk dəfə 1916-cı ildə tanış olublar. Qalaktionun da iştirak etdiyi əhali siyahıyaalınması gedirdi. Qalaktion da onun işində iştirak edirdi. Dayımla dost olsa da və onunla tez-tez görüşsə də anamı tanımırdı. Bağdadda ilk görüşləri bu siyahıyaalma zamanı baş tutdu. Ninonu görən kimi ayağa qalxdı: "Bu qiymətli göyərçini kim bu tərəfə uçurtdu?" Qalaktion və anam belə tanış oldular. Sonradan onların görüşü də baş tutdu.

Anam iyirmi yaşlarında olardı və tez-tez xeyriyyə tamaşalarında iştirak edirdi. Bir dəfə "Kristin" tamaşası zamanı qəfildən yuxarıdan səhnəyə qızılgüllər səpələnəndə camaat çaşqınlıq içində idi və tamaşa pozuldu. Təəccüblənən anam bunun səbəbkarının kim olduğunu anlaya bilmədi. Elə bu anda Qalaktion səhnəyə cumdu və Ninonun əllərini öpdü. Sən demə, iki oğlan kirayələyib və tavandan asılmış yelləncəkdən səbətlə gətirilmiş gülləri atırdılar. Regional qəzet bu barədə yazırdı: "Səhnəyə aktrisa Nino Kvirikadzenin üzərinə cuman, tamaşanı pozan Qalaktion Tabidzenin xuliqanlıq hərəkəti qınanılmalıdır".

Həmin illərdə Qalaktion Kutaisidə çox məşhur idi. Qadınlar xüsusilə harınlaşdırmaqda həvəsli idilər. Məlum olur ki, gənclər tez-tez Xanistskali çayının sahilində toplaşırdılar. Onlar mahnılar oxuyur, söhbət edirdilər. Qalaktion bu əyləncələrin ruhu və ürəyi idi. O, mahnı oxumağı çox sevirdi. Özü də əla bariton idi. O, mütləq duyğu qabiliyyərinə malik idi. Belə axşamların birində anamın xahişi ilə "Mtatsminda Ayı" şeirini oxudu. Sonra elə oldu ki, onların yolları ayrıldı. Anam ali təhsil məktəbinə daxil olmaq üçün Tiflisə gəldi. O, ixtisasca hüquqşünas idi və burada vəkil işləyirdi. 1918-ci ildə Nino Kvirikadze Davit Ebanoidzenin həyat yoldaşı oldu. Təəssüf ki, atamı 1937-ci ildə gülləndilər. Qalaktionun həyat yoldaşı Olqa Okucava da repressiyaların qurbanı oldu və budur, 27 il sonra tale onları yenidən bir araya gətirdi..."

*(davamı növbəti sayda)*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN
2026-CI İL
№ 12 (252)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ÖTƏN İL GÜRCÜSTANDA 44319 NƏFƏR DÜNYASINI DƏYİŞİB




Milli Statistika Xidmətinin (Sakstat) ölənlərin sayı və ölüm səbəbləri haqqında yeni hesabatına əsasən, 2025-ci ildə Gürcüstanda ümumilikdə 44319 nəfər dünyasını dəyişib ki, bu da ötən illə (43971 hal) müqayisədə 0.8 % (348 nəfər) çoxdur.

"Sakstat"ın məlumatına görə, ölkədə ürək-damar xəstəliklərindən ölüm halları azalıb, bunun fonunda isə onkoloji xəstəliklərdə hiss olunacaq dərəcədə artım qeydə alınıb.

### Ürək-damar xəstəlikləri

Qan dövranı sistemi xəstəlikləri ölkədə hələ də bir nömrəli ölüm səbəbi olaraq qalır, lakin ötən illə müqayisədə qan dövranı sistemi xəstəliklərindən ölənlərin sayı əhəmiyyətli dərəcədə azalıb.

2025-ci ildə bu səbəbdən 16711 nəfər dünyasını dəyişib (ümumi vəfat edənlərin 37,7 %-i), halbuki 2024-cü ildə bu göstərici 18159 nəfər təşkil edirdi. Müvafiq olaraq, sözügedən xəstəliklər qrupunda ölüm halları 8 % azalıb.

Bu sinfə daxil olan xəstəliklər üzrə tendensiya aşağıdakı kimidir:

***Serebrovaskulyar xəstəliklər:*** 2025-ci ildə 7411 hal qeydə alınıb ki, bu da 2024-cü ilin göstəricisindən 12,1 % azdır.

***Ürəyin işemik xəstəliyi:*** Ölüm halları 4752-dən (2024-cü il) 4357-yə (2025-ci il) düşüb. Onların arasında kəskin miokard infarktı göstəricisi 2195-dən 1937-yə enib.

### Onkoloji xəstəliklərin artımı

Xərçəng xəstəliklərindən ölüm halları baxımından diqqətçəkən tendensiya qeydə alınır. 2025-ci ildə bu səbəbdən vəfat edənlərin sayı 6877 nəfər təşkil edib ki, bu da ötən ilin göstəricisini (5720 hal) 20,2 % üstələyir.

Xərçəngin növlərinə görə, ən yüksək artım aşağıdakı lokalizasiyalarda müşahidə olunur:

***Ağciyər, bronx və traxeyanın bədxassəli şişi:*** Ölüm halları 777-dən 1057-yə yüksəlib (+36 %);

***Süd vəzisinin bədxassəli şişi:*** Halların sayı 514-dən 655-ə qədər artıb (+27,4 %);

***Yoğun bağırsaq və düz bağırsaq (kolorektal) xərçəngi:*** 2024-cü ildə qeydə alınmış 357 haldan bu göstərici 2025-ci ildə 613-ə yüksəlib (+71,7 %);

***Prostat vəzisinin xərçəngi:*** Halların sayı 283-dən 423-ə qədər artıb (+49,4 %).

### Diabet, infeksiyalar və xarici səbəblər

Statistik hesabata əsasən, digər mühüm siniflərdə də dəyişikliklər qeydə alınır:

***Şəkərli diabet:*** Bu diaqnozla ölənlərin sayı 876-dan (2024-cü il) 983-ə (2025-ci il) yüksəlib.

İnfeksion və parazitar xəstəliklər: 514 haldan 719 hala qədər artım qeydə alınır.

***Həzm sistemi xəstəlikləri:*** Halların sayı 1307-dən 1521-ə yüksəlib.

Travmalar, zəhərlənmələr və xarici səbəblər: Bədbəxt hadisələr və digər xarici amillər səbəbindən 2025-ci ildə 1973 nəfər ölüb (2024-cü ildə – 1826).

***Tənəffüs sistemi xəstəlikləri:*** Ölüm sayı cüzi dərəcədə azalıb – 3641-dən 3533-ə düşüb. Onların arasında pnevmoniyadan dünyasını dəyişənlərin sayı 2621-dən 2430-a enib.

### Yaş qruplarına görə demoqrafik mənzərə

Yaş qruplarına görə məlumatların paylanması ölkədə əhalinin qocalmasının ümumi demoqrafik tendensiyasını əks etdirir.

Dünyasını dəyişənlərin ən böyük hissəsi yaşlı nəslin payına düşür. 85 yaş və daha yuxarı yaş qrupunda ölüm halları 11260-dan (2024-cü il) 11854-ə (2025-ci il) yüksəlib ki, bu da ümumi ölüm hallarının 26,7 %-ni təşkil edir.

Uşaq ölümünə gəlincə, 0-dan 4 yaşadək qrupda göstəricilər demək olar ki, dəyişməz qalıb: 2024-cü ildə 340, 2025-ci ildə isə 343 hal qeydə alınıb. Uşaq ölümünün əsas səbəbi olaraq yenə də perinatal dövrdə meydana gələn vəziyyətlər və anadangəlmə anomaliyalar qalmaqdadır.

*Mənbə: bm.ge*

## MƏKTƏB FORMALARI ÇİNDƏ TİKİLƏCƏK



Dövlət Satınalmaları Agentliyinin internet saytında Təhsil Nazirliyinin Çinin "Glory Textile Industry" şirkəti ilə imzaladığı müqavilə dərc olunub. Müqavilənin dəyəri 45.6 milyon lari təşkil edir və onun çərçivəsində avqustun 25-dən noyabrın 30-dək birinci sinifdən altıncı sinif daxil olmaqla şagirdlər üçün məktəb forması dəstlərinin satın alınması həyata keçiriləcək ki, bu da ümumilikdə 1.8 milyon ədədi əhatə edir.

"Yeni Yol" "bm.ge"-yə istinadən xəbər verir ki, formaların tikiləcəyi material əsasən sintetik olacaq, daha dəqiq desək: poliester 72 %; viskoz 25 %; elastin 3 %.

Qızlar üçün pencəyin tikilmə qiyməti 39,61 lari; oğlan pencəyinin qiyməti 35,43 lari; qızlar üçün ətəyin qiyməti 16,76 lari; oğlan şalvarının qiyməti 19,65 lari; qız şalvarının qiyməti isə eynilə 19,65 lari olaraq göstərilib. Məktəb forması dəstinə oğlanlar üçün pencək və 2 şalvar (ümumi qiyməti 74,73 lari); qızlar üçün isə pencək, şalvar və 1 ətək (ümumi qiyməti 76,02 lari) daxildir. Formalar 40 dərəcə temperaturda yuyulma üçün nəzərdə tutulub.

Formaların hazırlanıb çatdırılması üç mərhələdə həyata keçiriləcək: I mərhələ – 301000 ədəd – 2026-cı il avqustun 25-dək; II mərhələ – 600000 ədəd – 2026-cı il oktyabrın 15-dək; III mərhələ – 900000 ədəd – 2026-cı il noyabrın 30-dək.

Şirkətlə müqavilə tender keçirilmədən, birbaşa danışıqlar yolu ilə imzalanıb. Çin şirkəti Gürcüstanda Məhdud Məsuliyyətli Cəmiyyəti 2026-cı ilin mart ayında təsis edib.

Müqaviləyə əsasən, formaları tikiş fabriki Tszyansu əyalətində yerləşən Çinin "Jiangsu SUMEC ETON KIDD Brand Management Co" şirkəti tikəcək. Şirkətin internet saytında verilən məlumata görə, müəssisə məktəb formalarının istehsalı ilə məşğuldur.

## GÜRCÜSTANDA YÜKSƏK ƏMƏKHAQQI OLAN SAHƏLƏRİN SİYAHISI AÇIQLANIB



Gürcüstan Milli Statistika Xidməti əməkhaqqının ən yüksək olduğu fəaliyyət istiqamətlərinin və sahələrinin siyahısını dərc edib.

"Yeni Yol" "etaloni.ge"-yə istinadən xəbər verir ki, Gürcüstanda fəaliyyət növlərinə görə nisbətən yüksək əməkhaqqı aşağıdakı sahələrdə qeydə alınıb:

- Maliyyə və sığorta fəaliyyəti – 5952.5 lari (ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,9 faiz artıb);
- İnformasiya və rabitə – 4290.7 lari (3,1 faiz artıb);
- Dağ-mədən sənayesi və karyerlərin işlənilməsi – 3230.4 lari (11,8 faiz artıb);
- Peşəkar, elmi və texniki fəaliyyətlər – 3186.0 lari (7,1 faiz artıb).

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.